# İslamda evlilik və Talaq surəsi

***İslamda təhsil almaq hər bir müsəlman qız və oğlana icbaridirsə, o zaman müsəlman üçün erkən evlilik məqbul sayıla bilməz. Çünki erkən evlilik, birmənalı tərzdə həddi-büluğa yetməyən qız və oğlanları icbari təhsildən yayındırır. Deməli, erkən evlilik qızların təhsil hüquqlarının pozulmasına şərait yaradır. Bu, həm də islamda əsası qoyulan cinslərin hüquq bərabərliyinə ziddir.***

Hz. Muhəmməd (s.ə.s) müsəlman cəmiyyətində hüquq bərabərliyini və sosial ədaləti təmin etmişdir. İslam dinində, nikaha daxil olan qızların, öz həyat yoldaşlarını atalarının razılığını da nəzərə almaqla, sərbəst seçmək hüququ vardır. Qızı, qəbul etmədiyi şəxs ilə evlənməyə vadar etməyə heç kimin haqqı yoxdur. Üstəlik, yetkinlik yaşına çatmamış bir qızın belə bir seçim etmək qabiliyyəti və ya istəyi yoxdur. Qızın iradəsinə qarşı çıxaraq valideynlərinin, onu zorla istədikləri adama ərə vermələri, islamda qadın və uşaq hüquqlarına qarşı təcavüz kimi dəyərləndirilə bilər.

"Ərlərinin qadınları üzərində olan haqları kimi, qadınların da ərləri üzərində haqları vardır." (Bəqərə, 228).

Xanım Aişə zorla evləndirilən bir qızla əlaqəli olaraq, Allah Rəsulunun aydınlıq gətirməsini belə bildirir: "Ənsardan Hidamın qızı Hansa, Aişənin yanına gələrək, atam ailə şərəfini artırmaq üçün məni qardaşımın oğlu ilə evləndirdi. Mən isə, bu evliliyi istəmirəm." Xanım Aişə də ona, "Rəsulullah gələnə qədər gözlə!" dedi. Rəsulullah gələndə, Xanım Aişə ona vəziyyəti bildirdi. O da, qızın atasını çağırtdırdı və qadına seçmək haqqı verdi. Bundan sonra qadın belə dedi: "Ey Allahın Rəsulu! Atamın əhd etdiyi nikahı qəbul etdim. Ancaq bu davranışımla qadınlara atalarının evlilikdə belə bir səlahiyyətinin olmadığını bildirmək istəmişdim."

Məlum olduğu kimi, islamda nikaha daxil olan qızlara mehir (müəyyən məbləğdə pul və ya qızıl) verilir. Mehir, ailədə qadının xüsusi mülkiyyətinə aid olan bir maddi dəyər kimi, onun iqtisadi müstəqilliyinə və onun sosiallaşmasına şərait yaradırdı. Mehirin məhdudlaşdırılması, onun bu imkanlarını və azadlıqlarını ortadan qaldırdı. Buna görə də, ayə və səhih hədislərdə, qadınların mehirləri, onların tam səlahiyyətinə verilir və heç kimə onu məhdudlaşdırmaq imkanı verilmirdi. Lakin yetkinlik yaşına çatmamış bir qızın bu maddi dəyəri artırmaq və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyəti yoxdur. Bu halda, o, mülkiyyət hüququna sahib ola bilmədiyi üçün ərə gedə bilməzdi. Çünki ayə və hədislərdə həddi-büluğun meyarı müstəqil iqtisadi fəaliyyət idi.

Xəlifə Ömər minbərə çıxaraq "Ey Nas! Məni eşidin, bundan sonra hər hansı biriniz qadınların mehirində həddinizi aşmayın. Əgər mən, Peyğəmbərimizin verdiyi və ya ona verilən miqdardan artıq verdiyinizi bilsəm, artıq olanı Beytülmala keçirəcəm" demişdi.

Qüreyşdən bir qadın: "Ya Əmirəl-Möminin, Allahın kitabı ilə sənin sözündən hansına riayət edilməlidir?" deyə soruşdu. Xəlifə Ömər "Əlbəttə ki, Allahın kitabına riayət olunmalıdır. Ancaq niyə belə bir fikir söylədin?" deyəndə, qadın: "Sən indi qadınların mehirinin həddən artıq olmamasını söylədin. Ancaq, Cənabi-Haqq, Qurani-Kərimdə, "Əgər qadınlardan hər hansına bir yük qızıl belə versəniz, ondan heç nə geri almayın" buyurmuşdur. Bundan sonra Xəlifə Ömər: "Bütün insanlar Ömərdən yaxşı bilir" deyərək, sözünə davam etdi və "Ey Nas! Mən sizə qadınların mehirində həddi aşmamağınızı söyləmişəmsə də, bu sözümü geri götürürəm. Bundan sonra kim nə qədər vermək istərsə, versin" dedi.

Rauf Məmmədov yazır: "Göründüyü kimi, islamın ilk dövründə müsəlman qadınları aldıqları elm və təhsilin nəticəsi olaraq, öz hüquqlarını yaxşı bilmiş və onun uğrunda mübarizə aparmışlar. Bir qadının dövlət rəhbərinə qanunun aliliyi prinsipinə istinad edərək, irad tutması, onu göstərir ki, ilk müsəlman cəmiyyətində gender bərabərliyi və demokratik vətəndaş cəmiyyəti formalaşmışdı. Təbii ki, belə bir mühitdə heç kim qadını erkən evliliyə vadar edə bilməzdi. Çünki islam dininin hökmləri və onun keşiyində dayanan ilk səhabələr buna yol verməzdilər. Xüsusilə, həmin dövrdə qadınların irşadı və savadlanması istiqamətində fəaliyyət göstərən xeyli sayda fəal qadın cəmiyyətləri və vəqfləri var idi. Onlar, cəmiyyətdə qadınların hüquqlarının qorunması və təmin olunması istiqamətində çalışırdılar. Buradan, aydın olur ki, nəyə görə sonralar Əməvilər dövründə yaradılan saxta ruhanilər sinfi ilə qadınların bütün hüquqlardan məhrum etdilər və onları, cahiliyyə dövründə olduğu kimi, erkən evliliyin zülmünə məruz qoydular. İnsanların (xüsusilə, qadınların) azad, savadlı, vicdanlı və şəxsiyyət kimi yetişməsinə mane olmaq istiqamətində əksər hədisələr saxtalaşdırıldı və yeniləri uyduruldu.

Göründüyü kimi, ayələrdə və onlarla uzlaşan hədislərdə qadınların kişilərlə bərabər hüquqlara malik olmaları, elm-təhsil almaları, həddi-büluğa çatmaları, evlənmələri və mülkiyyət sahibi olmaları bir-biri ilə əlaqəli olan anlayışlardır. Bütün bunlar, deməyə əsas verir ki, ilk islam cəmiyyətində gender bərabərliyi təmin edilmiş və qadınlar çəkinmədən öz hüquqlarını tələb etmişlər.

Müsəlman cəmiyyətində insan hüquqları, demokratiya, söz azadlığı, qadın azadlığı və sosial ədalət prinsipləri Əməvilər dövlətinin yarandığı dövrədək davam etmişdir. Belə bir sosial mühitdə, qadınlar, təhsil almaq və irşad olunmaq yoluyla əqli-psixoloji səviyyələrini yüksəldir və əldə etdikləri mülkiyyət hüquqları ilə işləyib vətəndaş cəmiyyətinin formalaşmasına öz töhfəsini verirdilər. Bu cəmiyyətdə, qadınların əməyinə və sosiallaşmasına ehtiyac yaranmışdı

. Çünki minlərlə səhabə qadın gənc nəslin savadlanması və irşad olunması istiqamətində, həmçinin, sosial-iqtisadi sahələrdə çalışırdılar. Əfsuslar olsun ki, sonrakı dövrlərdə hakim olan patriarxal düşüncə, onların bir çoxlarının adlarının unudulmasına şərait yaratdı. Halbuki onların çoxu ilk hədis elminin təməlini qoyan insanlar olmuşlar."

Təbii ki, belə bir sosial mühitdə qızların erkən ərə getmələri mümkün deyildi. Bu cür evliliklər müşrik ərəblər və yəhudilər arasında tətbiq olunsa da, müsəlmanlar arasında yayıla bilməzdi. Çünki biz bunu nə Peyğəmbərin (s.ə.s), nə də onun ətrafında olan ilk müsəlman səhabələrin həyatında müşahidə edirik. Qurani-Kərim erkən evliliyi dəstəkləsəydi, ilk növbədə, Hz. Peyğəmbər (s.ə.s) və onun yaxın səhabələri bunu edərdilər. Halbuki biz bunu görmürük. Lakin sonrakı dövrlərdə erkən evliliklər müşrik ərəblərin və yəhudilərin təsiri ilə bəzi saxta-uydurma hədislərdə yer alaraq, islam mədəniyyətinin ayrılmaz hissəsinə çevrildi.

R.Məmmədovun fikrincə, Qurani-Kərimdə həddi-büluğ (rüşd) səviyyəsi hər iki cins üçün, kişilərlə bərabər hüquqlara malik olmaları, elm-təhsil almaları, həddi-büluğa çatmaları, mülkiyyət sahibi olmaları və onu idarə etmək səviyyələri ilə bağlıdır. Bu isə, onlara əqli-psixoloji inkişafı zəruri edir. Bu inkişafa nail olmaq üçün, təhsil almaq və təcrübə əldə etmək lazımdır. Elm-təhsilin irəliləməsi üçün, cəmiyyətdə qadın və kişilərin əməyinə tələb olmalıdır. Bütün bunlar, deməyə əsas verir ki, bu qabiliyyət və imkanlar orta hesabla 17-18 yaşdan tez əldə oluna bilməz. 12-13 yaşında kimsəsiz, yetim bir qızın və ya oğlanın öz malını istifadə edərək, hər hansı bir sosial-iqtisadi fəaliyyətlə məşğul olması və dini-hüquqi məsuliyyət daşıması, sadəcə, mümkün deyildir. Həmçinin, islam hüququ ilə uşaqların bu yaşda mülkiyyət və miras sahibi olmaları da mümkün deyildi.

Qurani-Kərim və hədislərdə həddi-büluğla (rüşd) bağlı verilən məlumatların təhlilindən gələnən orta məxrəc, ondan ibarətdir ki, qızlar və oğlanlar nikaha daxil olarkən, əqli-psixoloji və fiziki cəhətdən yetkin olmalı, iqtisadi müstəqillik və şəxsi həyatı müəyyənləşdirməklə əlaqədar sərbəst qərar vermək qabiliyyəti olmalı, icbari təhsil müddətini bitirməli, ailəsini təmin etmək və gəlir əldə etmək iqtidarında olmalıdır. Bütün bu şərtləri nəzərə alsaq, Qurani-Kərimə görə yetkinliyin 17-18 yaşdan əvvəl olması mümkün deyildi.

Bəzi "islam alimləri" Talaq surəsinin 4-cü ayəsini yanlış şəkildə tərcümə və şərh edərək, sanki islamda erkən evliliyin olmasını sübut etməyə cəhd göstərirlər. Ayə belədir: "Heyzdən kəsilmiş (yaşlı) qadınlarınızın (iddəsi barəsində) şübhəniz varsa, onların, eləcə də, heyz halı kəsilənlərin (vəllai ləm yahidnə) də gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə, onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, (Allah) onun işini asanlaşdırar" (Talaq 4).

Qərb şərqşünasları Talaq surəsinin 4-cü ayəsində "heyz halı kəsilən" (vəllai ləm yahidnə) ifadəsinə istinad edərək, uşaq evliliyinə (pedofiliya) dəlil axtarmağa çalışırlar. Maraqlıdır ki, bir çox "islam alimləri" də bu ifadəni "hələ heyz görməmiş qızlar" kimi tərcümə edərək və bu şəkildə ona şərh verərək, islam düşmənlərinin fitnələrini təsdiq edirlər. Halbuki "vəllai ləm yahidnə" ifadəsində nə "həb", nə də "qız" sözləri vardır. "Həb heyz görməmiş" ifadəsini ərəbcəyə tərcümə etsək "əllaai ləmma yahidnə" olardı. Halbuki ayədə belə deyil. Ayənin hərfi tərcüməsi "heyz halı" kəsilən, "aybaşısı dayanan, aybaşının dayandığına görən (qadın)" kimi olmalıdır.

İkincisi, bu ayə yetkin qadınlardan bəhs etdiyi üçün, onlara münasibətdən" isə (yetkin qadın) ifadəsi işlənir. Əgər burada həddi-büluğa (rüşd) çatmayan qız uşaqları nəzərdə tutulsaydı, onun ərəbcə qarşılığı (vildan, vələd, bənat) olardı. Halbuki ayədə tərcüməçilər "qız" sözünü özlərindən əlavə edirlər.

Burada "heyz halı kəsilən" (vəllai ləm yahidnə) ifadəsi tibbdə sekonder amenore" (aybaşısı bir müddət kəsilən) kimi tanınan qadın xəstəlik halı ilə bağlıdır. Bunun, "hələ heyz görməmiş" kimi təqdim olunması islam dinində erkən evliliyin olmasını ortaya qoymaq üçün bir bəhanə axtarışıdır. Çünki heyz halı yaşamayan kiçik qızın 3 ay gözləməsinə nə lüzum var? Axı, onun 3 aydan sonra hamilə olmaq ehtimalı əşyanın təbiətinə yaddır.

R.Məmmədov yazır: "İslam dininin ilk yayıldığı dövrdə, ilk öndər səhabələr arasında erkən evlilik müşahidə olunmur. Bu nikahlar sonrakı dövrlərdə yayılmağa başlamış və zülmkar hakimiyyətlərin qulluğunda dayanan ruhanilər təbəqəsi islam mənbələrini yalnış şəkildə yozaraq, müsəlmanların cahiliyyət dövrünün adət-ənənələrini yaşamalarına şərait yaratmış və yaratmaqdadırlar. Görünür, cahiliyyət dövrünün ənənələrinin tədricən islam hökmlərinin yerini tutması və islam dəyərləri kimi təqdim olunması ənənəsi, Müaviyənin xəlifəliyi dövründən dirçəldilmişdir. Erkən evlilik Müaviyənin sarayındakı məmurların və ruhanilərin həvəsindən keçdiyi üçün, onlar bunun yayılması üçün şərait yaratmışlar." Bunun üçün də münbit şərait olmuşdur. Çünki cahiliyyə dövrünün ərəbləri arasında erkən evlilik və qadınlara qarşı digər zorakılıqlar geniş yayılmışdır. Bunun cahiliyyə dövrünün adəti olduğunu və Müaviyə tərəfindən bərpa edildiyini təsdiq edən sənəd, ərəb şairlərindən olan İbn Yəranın sözləridir: "Səkkiz yaşına çatdısa, o, mənim üçün bir cariyə deyil, Ütbə və Müaviyəyə nikahlaya biləcəyim bir gəlindir."

Ərəblərdə 8-9 yaşında olan qız uşaqlarına nikah üçün yetkinlik yaşına çatan (cariyə) bir gəlin kimi baxırdılar. Bu mentalitet, islam dinində məqbul olmamasına rəğmən, bu günə kimi davam etmişdir. Buna görə də, müsəlmanlar din və mədəniyyət fenomenlərini bir-birindən ayırmağı və onlara fərqli rakursdan baxmağı öyrənməlidirlər.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*